***Bəşər mədəniyyəti xəzinəsinə bir çox gözəl memarlıq abidələri və dekorativ sənət nümunələri vermiş xalqımızın təsviri sənəti orta əsrlərdə nisbətən zəif və birtərəfli inkişaf etmişdir. Bunun əsas səbəbi islam dini ehkamlarının canlı məxluqatın, xüsusən insan surətinin təsvirini verməyi qadağan etməsi idi. Məlum olduğu kimi, mürtəce din xadimləri rəssamları insan şəklini təsvir etməkdən çəkindirmək üçün müxtəlif uydurmalara əl atır, onları Allahın qəzəbi, cəhənnəm əzabı ilə hədələyirdilər. Guya axirət günündə rəssamdan yaratdığı şəkillərə ruh verməK tələb olunacaq, o isə buna qabil olmadığından cəhənnəm odunda yandırılacaqdır. Təsviri sənətin inkişafını bir tərəfdən din xadimlərinin uydurma və hədələri ləngidirdisə, ikinci tərəfdən, təsviri sənətdən dini təbliğat vasitəsi kimi istifadə edən xristianlığın əksinə olaraq, islam dininin məscid qapılarını rəssamlarının üzünə bağlaması rəssamlığın və heykəltəraşlığın inkişafına mənfi təsir göstərirdi.***

*Təsviri sənətin əsas sifarişçisi, himayəçisi və onun bütün fomalarını sintez halında özündə cəmləşdirən məbəd və kilsələrdən fərqli olaraq, islam dini şəkilləri və heykəlləri məscidə buraxmırdı və bununla da təsviri sənət formalarının(monumental və dəzgah boyakarlığının) eləcə də heykəltəraşlığın inkişafına mane olurdu.*




Digər tərəfdən, Qərbi Avropa sənəti tarixində olduğu kimi, dini qadağana hər yerdə və eyni dərəcədə riayət edilmirdi.

– Buna görədir ki, islam dininin məhdudiyyətinə baxmayaraq, hər bir xalq özünün mütərəqqi bədii ənənələrinə əsaslanaraq, təsviri sənəti davam və inkişaf etdirməyə çalışırdı. Qədim Gəncə, Örənqala və başqa şəhərlərdən tapılmış keramik qabların üzərində insan və heyvan fiqurları, çovqan oyunu, ov səhnələri və s. süjetli kompozisiyalara rast gəlirik. Təsviri sənətin qədim nümunələri kimi, böyük əhəmiyyəti olan bu şəkillər üslub xüsusiyyətlərinə görə monumental divar boyakarlığının təsirini əks etdirir. Kompozisiyaların sadəliyi və monumentallığı, təsvir vasitələrinin lakonikliyi, nəhayət, kolorit aydın göstərir ki, üslub baxımından bu təsvirlərə ilk miniatürlər arasında müəyyən yaxınlıq olmuşdur.

Orta əsrlərdə Azərbaycan rəssamları miniatür sənətində müstəsna nailiyyətlər əldə etmiş, ümumdünya incəsənəti xəzinəsinə əbədi daxil olmuş şah əsərlər vermişlər. Miniatür sənətimizin ən yüksək inkişaf mərhələsini təşkil edən XVI əsr Təbriz məktəbi orta əsr Azərbaycan sənətini ümumdünya miqyasına çıxarmış, sənət tarixində ona şərəfli yer qazandırmışdır.

Burjua sənətşünaslarının "İran sənəti" adlandırdıqları Orta Şərq miniatür sənətinin elmdə bəlli olan ilk nümunələri məhz Azərbaycan şəhərlərində -- o dövrdə yüksək inkişaf etmiş mədəni mərkəzlərdən olan Təbrizdə və Marağada yaranmışdır. Bu sənətin müstəqil bədii məktəb kimi təşəkkülü, yəni Təbriz miniatür məktəbinin yaranması hələlik "Vərqa və Gülşa"(XIII əsrin əvvəli), Əlaləddin Coveyninin " Monqolların tarixi"(1290), "Mənafi əl heyvan"(1297) və Rəşiddədinin "Cami-ət-təvarix"(1307-1314) adlı əlyazmalarına çəkilmiş miniatürlərin yaranması ilə əlaqələndirilir.

Bu yeni məktəbin təşəkkülündə iki istiqamətdən gələn təsirin - Şərq və Qərb sənəti ənənələrinin mühüm rolu olmuşdur. Yeni ənənələr özünü bir tərəfdən ərəb - Mesopotamiya məktəbi vasitəsilə gələn Bizans sənətinin təsirində, o biri tərəfdən isə monqollarla gəlmiş uyğur rəssamlarının gətirdiyi Çin Türküstanı sənətinin təsirində büruzə verirdi.

Miniatür (fr.miniature, ital.miniatura, lat.minium - keçmişdə əlyazma kitablarını bəzəmək üçün istifadə edilən əlvan rənglər(kinovar, sülügən) - həcminin kiçikliyi və bədii üsullarının xüsusi incəliyi ilə fərqlənən təsviri sənət əsəridir. Müstəqil mahiyyətli boyakarlıq, qrafika(bəzən oyma) əsərləri(xüsusilə portret) miniatürün səciyyəvi növləridir. Üzəri lak, yağlı boya, yaxud tempera ilə işlənmiş kiçik lak məmulatlar miniatürün xüsusi növünə daxildir. Miniatürün əsas sahələrindən biri kitab miniatürüdür. Kitab miniatürü hələ Qədim Misirdə mövcud olmuşdur. Orta əsr Bizans və Qərbi Avropa miniatürlərində Bibliya süjetləri və müqəddəslərin həyatından səhnələr mühüm yer tuturdu. XI əsrdən başlayaraq Rusiyada miniatüra ikona sənətində və dini kitabların tərtibatında daha çox yayılmışdı. XV əsrdən miniatür əsərlərində dünyəvi süjetlər yer tutmağa başladı.

Portret miniatürləri kiçik ölçülü boyakarlıq əsərləridir. Belə portretlərdən tütün qabı, saat, üzük, medalyon və s. məmulatlar üzərində bəzək elementi kimi istifadə olunur. Boyakarlığın xüsusi janrı kimi portret miniatürü Renessans dövründə yaranmış, XVIII əsrdə yüksək inkişafa çatmışdı.

Orta əsr ərəb ölkələri içərisində miniatür daha çox İraqda inkişaf etmişdi. Burada hələ XII-XIII əsrlərdə elmi risalələrə və bədii kitablara illüstrasiyalar çəkilmişdir.

Kitab tərtibatı və miniatür sənəti Azərbaycanda daha əvvəllər mövcud olsa da, bu sənətin müstəqil bədii məktəb kimi təşəkkülü "Vərqa və Gülşa"(XIII əsrin əvvəli), Rəşidəddinin "Cami ət-təvarix"(1307-1314), Firdovsinin "Şahnamə"("Demotte Şahnaməsi",1340-1350) və s. əlyazmalarına

çəkilmiş miniatürlərlə əlaqədardır. Mütəxəssislər haqlı olaraq bu əsərlərin çoxunu Şərqdə miniatür sənətinin orijinal və dəyərli, bəzilərini isə şah əsərləri kimi yüksək qiymətləndirirlər.

"Demotte Şahnaməsi"nin illüstrasiyaları imzasızdır. Tədqiqatçıların fikrinə görə onların çoxunu XIV əsrin məşhur ustad rəssamı Şəmsəddin, bir hissəsini isə onun tələbəsi, sonralar Teymurun Səmərqəndə göndərdiyi Əbülxay çəkmişdir.

Üslubu, ifaçılıq tərzi, kompozisiya və obrazların həllinə görə müxtəlif olmalarına baxmayaraq bu nadir "Şahnamə" nüsxəsinin miniatürləri küll halında Azərbaycan miniatür sənətinin inkişafında xüsusi əhəmiyyətə malik yeni yaradıcılıq istiqaməti açdı, Təbriz məktəbini Yaxın və Orta Şərqdə miniatür sənətinin əsas mərkəzinə çevirdi.

XV əsrdə Azərbaycanda yaranmış ictimai-iqtisadi və siyasi şəraitlə əlaqədar olaraq, Təbriz öz əvvəlki istiqamətləndirici rolunu itirir. Bu dövrdə Azərbaycanın bir çox görkəmli rəssamları və kitab sənətinin başqa mahir ustaları teymurilərin əsas mərkəzinə çevrilmiş Herata dəvət edilir.

XV əsrdə Təbriz məktəbinin təsiri nəticəsində Azərbaycanın başqa şəhərlərində də miniatür sənəti inkişaf edir.1468-də Şamaxı antologiyası (London, Britaniya muzeyi ) və 1539-cu ildə Sədinin "Bustan" (İstanbul, Topqapı muzeyi) əsərlərinə çəkilmiş illüstrasiyalar, Əbdül Baqqi Bakuvinin miniatürləri (İstanbul, Topqapı muzeyi), onların Təbriz məktəbini xatırladan püxtələşmiş üslubu XV-XVI əsrlərdə Şirvanda zəngin bədii ənənələrə əsaslanan qüvvətli bir sənət məktəbinin mövcud olduğunu sübut edir.

Azərbaycan miniatür sənətinin inkişafında XVI əsr Təbriz məktəbi xüsusi əhəmiyyət kəsb edir. Şərq xalqlarının miniatür sənətinə həsr edilmiş xarici və bəzi keçmiş sovet ədəbiyyatında XVI əsr Təbriz məktəbi Herat məktəbinin mexaniki davamı kimi qələmə verilir, Kəmaləddin Behzad isə bu məktəbin banisi hesab edilir.

Təbriz məktəbinin inkişafını Herat məktəbinin təsiri ilə bağlayarkən, Behzad başda olmaqla Herat rəssamlarının Şah İsmayılın saray kitabxanasında işləmələrinə əsaslanırlar.

Təbriz məktəbinin inkişafını, bu dövrdə yaranmış yeni üslubun formalaşmasını heç şübhəsiz ki, Behzadın deyil, bilavasitə Sultan Məhəmmədin və onun rəhbərliyi altında işləyən Mirzə Əli, Müzəffər Əli , Mir Suyid Əli və başqa Azərbaycan rəssamlarının yaradıcılığı ilə əlaqələndirmək lazımdır. Təsadüfi deyildir ki, XVI əsrdəTəbrizdə yaradılmış, lakin müəllifləri bəlli olmayan miniatürlər bədii üslub xüsusiyyətlərinə görə ədəbiyyatda adətən "Sultan Məhəmməd məktəbi"nə aid edilir, yaxud da "Səfəvi məktəbi" istilahları ilə eyni mənada işlədilir.

XVI əsrin birinci rübünə aid əsərlər elm aləmində az bəlli olduğundan, Şərq xalqlarının miniatür sənətindən yazan müəlliflərin əksəriyyəti Təbriz məktəbinin xüsusi bir məktəb - üslub kimi formalaşmasını Şah Təhmasibin dövrünə aid edirlər. Lakin bir sıra faktlar bu fikrin düzgün olmadığını sübut edir. Əvvəla hələ 1524-cü ilə qədər, yəni Şah İsmayılın hakimiyyəti dövründə hazırlanmış bir sıra miniatürlü əlyazmaları bəllidir. Bunlara misal olaraq təbrizli xəttat Lütfallahın 1501-ci ildə köçürdüyü "Xəmsə" nüsxəsini, Hatifinin 1519-cu il tarixli "Həft mənzər" əsərini, 1506-cı il tarixli "Şahnamə" və başqa əlyazmalarını göstərmək olar. Əlyazma kitablarının hazırlanma prosesinin nə qədər çətin, zəhmətli və uzun sürən yaradıcılıq işi tələb etdiyi bəllidir. Məsələn, Budaq Qəzvininin yazdığına görə şah Təhmasib üçün hazırlanmış 1537-ci il tarixli məşhur "Şahnamə" saray emalatxanasında çalışan xəttat və rəssamların 30 illik ağır yaradıcı əməyinin gözəl bəhrəsi idi.

Ərəb xəttatı Əl-Dəkkan yuxuda öldüyünü və cənnətə düşdüyünü görür. "Cənnətə ayaq qoyan kimi arxası üstə yerə sərildim, ayağımı-ayağımın üstünə aşırıb qışqırdım: "Allah, çox şükür ki, nəhayət yazmaq əzabından azad oldum".

Bütün bu deyilənlər, bir qədər mübaliğəli görünsə də, xəttatlıq sənətinin çətinliyini, əlyazma kitablarının uzun illər davam edən əzablı zəhmətin nəticəsində başa gəldiyini sübut edir.

XVII əsrin ictimai-siyasi hadisələri Azərbaycan xalqının mədəni inkişafına ağır zərbə vurdu, onu ləngitdi, buxovladı. Bu vaxtdan etibarən yerli sənət məktəblərinin fəaliyyətində durğunluq yaranır, qüdrətli Təbriz məktəbinin qiymətli bədii ənənələrinin uzun sürən unudulma prosesi başlanır.XVIII əsrdə tamamilə tənəzzül edən boyakarlıq sənəti XIX əsrin ikinci yarısından etibarən yenidən dirçəlmyə başlayır.

Azərbaycan Dövlət İncəsənət Muzeyinin kolleksiyasında da gözəl miniatürlər var.

Muzeyin ekspozisiyasında "Gənc oğlan portreti", "Oğlan piyalə ilə", "Mavi geyimli oğlan", "Oturmuş oğlan", "Şahzadə ov zamanı", "Qoca aqil və gənc oğlan"adlı XVII-XIX əsrlərə aid miniatürlər nümayiş olunur. Bu əsərlər illər keçməsinə baxmayaraq hələ də öz əvvəlki gözəlliyini qoruyub saxlamaqdadır.

Bir sıra qonşu ölkələrin, əsasən, dini xarakter daşıyan miniatürlərindən fərqli olaraq, Azərbaycan miniatürlərində dünyəvi mövzular, bəşəri hisslər, real həyat hadisələri əsas yer tutur. Təsvir olunan bütün süjetlərin ana xəttini həyatın, insan gözəlliyinin tərənnümü təşkil edir. İnsanın taleyi, onun ehtirasları, rəssamın həyata və insanlara bəslədiyi məhəbbət - sənətkarı ruhlandıran, ona ilham verən yüksək ideallar bunlardır. Azərbaycan miniatür sənətinin yüksək bədii xüsusiyyətləri ilə bərabər, əsas məziyyətini təşkil edən, onu əsrlər boyu yaşadan da məhz bu keyfiyyətlərdir.

*Vəfa MƏMMƏDOVA*

__Ədəbiyyat:__

**1.Azərbaycan incəsənəti. Ə.R.Salamzadə, N.İ.Rzayev, K.C.Kərimov, R.S.Əfəndiyev, N.D.Həbibov. "Maarif" nəşr. Bakı 1977.**

**2. Azərbaycan incəsənəti. K.C.Kərimov, R.S.Əfəndiyev, N.İ.Rzayev, N.D. Həbibov Monoqrafiya.Bakı, İşıq, 1992.**

**3. Azərbaycan incəsənəti. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. Bakı 1964.**

**4. ASE - VI cild**

**5. Kərim Kərimov. Azərbaycan miniatürləri. Bakı 1980.**